Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 29-30 (7550-7551) ❁ 1933-cü ildən nəşr olunur ❁ Çərşənbə, 19 iyun 2019-cu il. ❁ news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***13 iyun***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları Direktorluğunun komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

***12 iyun***

Ölkə Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulanıb.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə mövcud əməkdaşlıq imkanları müzakirə edilib.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Dövlət başçısı İlham Əliyev Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib. Görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirilib. Rene Van der Lindenin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirilib.

❁ ❁ ❁

***11 iyun***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli qəbul edib. Görüşdə Azərbaycanda iqtisadi inkişafın sabitliyə xidmət etdiyi vurğulanıb. Bakıda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin təkcə Azərbaycan üçün deyil, ümumilikdə region üçün önəm daşıdığı bildirilib.

## İlham ƏLİYEV:

*Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.*




# Ölkəmiz davamlı inkişaf yolunda inamla irəliləyir

Müstəqil Azərbaycanın regionda aparıcı dövlətə çevrilməsi ölkədə uğurla həyata keçirilən milli siyasət strategiyasının məntiqi nəticəsidir..

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını bu gün layiqincə davam etdirən Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində ölkəmiz dünyanın sürətlə inkişaf edən dövlətləri sırasında öz layiqli yerini tutmuşdur.

Dövlət başçısının yeritdiyi uğurlu siyasət nəticəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycan bütövlükdə Avratlantika məkanında sülh, tərəqqi və əməkdaşlıq ölkəsinə, beynəlxalq enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrilmişdir.

Sülh və əməkdaşlıq ölkəsi kimi tanınan, ərazisinə və əhalisinin sayına görə iri dövlətlər kateqoriyasına daxil edilməyən, dünyanın zəngin karbohidrogen resurslarının cəmi bir faizinə malik olan Azərbaycan praqmatik diplomatiya yeritməklə, bölgədə və ümumən Avropa subregional məkanında layiqli yerini təmin etmişdir.

Heydər Əliyev siyasi kursu həmişə milli birliyə və həmrəyliyə ciddi zəmin yaratmış, onun azərbaycançılıq ideologiyası cəmiyyətin mənəvi bütövlüyündə və monolitliyində aparıcı amil olmuşdur.

Azərbaycan Prezidenti tərəfindən yeridilən və milli mənafelərə əsaslanan siyasət xalqı birləşdirir, cəmiyyəti ümumi problemlərin həlli naminə səfərbər edir. Son 15 ildə bu siyasət uğurla davam etdirilmiş, cəmiyyətin bütün siyasi qüvvələrinin, etnik və sosial qruplarının birliyini təmin etmişdir. Tarixi inkişafının yeni mərhələsini yaşayan xalqımız şəffaflıq tələb edən vətəndaş cəmiyyətinə transformasiya olunur.

Azərbaycan Prezidenti ölkənin gələcəyi naminə ölkədə güclü insan kapitalının formalaşdırılmasının zəruriliyini qeyd edir. Elm və təhsil sahəsində ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti 15 ildə inamla davam etdirən və yeni çalarlarla zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyev praqmatik və rasional düşüncəli siyasətçi kimi xalqın gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır.

Bütün bunlar deməyə əsas verir ki, respublikada əldə edilmiş yüksək nəticələrin arxasında məqsədyönlü siyasət, elmi əsaslara və ölkənin mövcud potensialına söykənən inkişaf prioritetləri dayanır. Azərbaycanın müstəqil, milli ənənələrə və ümumbəşəri dəyərlərə cavab verən inkişaf strategiyasının formalaşdırılması istiqamətində həyata keçirilən siyasət bu gün də əzmlə davam etdirilir. Ölkə vətəndaşları ürəkdən inanırlar ki, Azərbaycan xalqını firavan gələcəyə aparan bu siyasətin davamlılığı qarşıdakı illərdə də təmin olunacaq, müstəqil respublikamız Prezident İlham Əliyevin rəhbərliyi altında dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yerini daha da möhkəmləndirəcəkdir.

**"Qəbələ"**

# Milli Qurtuluş Günü qeyd edilib

İyunun 15-də Qəbələ Rayon İcra Hakimiyyətində Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə RİH başçısı yanında şuranın üzvləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev bu əlamətdar gün münasibətilə bütün toplantı iştirakçılarını təbrik edib, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan 1993-cü ilin 15 iyununun Azərbaycan xalqının mübarizə tarixinə əbədi həkk olunduğunu bildirib.

Giriş nitqində RİH-nin başçısı qeyd edib ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət gərginləşib, hakimiyyət böhranı yaranıb. Bildirilib ki, rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında gedən mübarizə daha da kəskinləşib. Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalan xalq 1993-cü ilin yayında Heydər Əliyevi təkidlə Bakıya dəvət edib. Xalqın təkidli dəvətini qəbul edərək iyunun 9-da Bakıya gələn ümummilli liider Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bilib. 1993-cü il iyunun 15-də o, Azərbaycan Respublikası Ali Sovetinin səd-

(Ardı 3-cü səhifədə).